ƏLİ ƏLİRZAYEV

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ ÜZRƏ TƏCRÜBƏ VƏ PERSPEKTİV DÜŞÜNCƏLƏR

17588

"ADİLOĞLU"
Bakı-2006

Elm və Təhsil Mərkəzi
„Təfəkkür Universiteti
Kitabxana

Az
Ə 61

Ə 61 **ƏLİ ƏLİRZAYEV**. Azərbaycan dövlətçiliyinin qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə təcrübə və perspektiv düşüncələr
*Bakı, «Adiloğlu» nəşriyyatı-2006. 512 səh.*

Kitabda mövcud iqtisadi, hüquqi və təşkilati idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi üçün konseptual və praktiki müddəalar verilir. Kitabın əhatə dairəsində qoyulan problemlərin köklü dəyişmələrə məruz qalması.cəhdləri verilir ki, bu da kitabın praqmatik düşüncələrlə bağlı olduğunu sübut edir. Kitab Azərbaycan parlamenti və ictimai-siyasi həyatı haqqında yazılan ilk əsəridir. Onun istifadə sferası, yeni düşüncə tərzi, geniş kontingent üçündür

Ə $\frac{0612110019}{121\text{-}2006}$ qrifli nəşr

© Ə.Əlirzayev, 2006

# ÖN SÖZ

Parlament təcrübəsində mən elmi potensialımı və müasir qanunların işləməsi mexanizmlərinin yaradılması vacibliyi prizmasından istifadə etmişəm. Mənim çoxlu çıxışlarım, tövsiyyələrim və konkret təkliflərim öz inkişafını mövcud qanunlarda tapdı. Bu gün və gələcək parlament təcrübəsində qanunların şəhrində mənim çıxışlarım öz aktuallığını və nəzərə alınması zəruriyyətini itirməyib. Bu təkliflər çox adamın xoşuna gəlmirdi. Amma stenoqrafik hesabat olaraq bunlar ilkin təsəvvürlər və ideyalardır. Texniki və maliyyə imkanlarının azlığında ancaq beş ildə olan çıxışlarımı vermişəm. Əslində çıxışlar üç dəfə bundan çoxdur. Mən bunları əvvəldən yazmamışam. Onlar müzakirələr zamanı formalaşan fikirlərdir. Ona görə də həmin çıxışların hər birində hələ açılası ideyalar çoxdur və mən beynimin məhsulunun ancaq parlament hesabatında deyil, geniş ictimayyətə çatdırmaqla özümün parlament zalında nə işlə məşğul olmağım haqqında hesabat verirəm. Kitabın əsas məzmunu qanunların konseptual vacibliyi, onların işləməsi üçün konkret təkliflər və qanunların qiymətləndirilməsi ilə baş verən sosial-iqtisadi, neqativ və pozitiv meyllərə baxışlarımı verməkdir. Kitab parlament üzvləri, nazirlər, iş adamları, müəllimlər, elmi işlər üçün aspirantlar, dissertantlar və tələbələr üçün əhəmiyyətlidir.

Qanunvericilik praktikası deputat fəaliyyətindən xeyli asılıdır. Qanunların reallığı, onun fəal olaraq iqtisadiyyatı və sosial həyatı dəyişmə qabiliyyəti qanunların real mexanizmlərini nəzərə almaqla onların maddələrinin və müddəaların yazılması səriştəsi ilə müəyyənləşir. Düzdür qanun yaradıcılığında beynəlxalq təcrübədən istifadə edilir. Bəzi qanunlar hətta tərcümə olunur, amma o real konkret respublika gerçəkliyinə uyğunluğunu parlament səviyyəsində işləməklə son variantını tapır. Mənim

qanunvericilik təcrübəm diktə və lobbiçilik xarakteri daşımayıb. Mən öz mülahizələrimə və düşüncələrimə Azərbaycan dövlətçiliyinə, onun iqtisadi və sosial inkişafına xidmət edən fikirlərimi demişəm.

Mənim parlament təcrübəm xarici ölkələrdə Azərbaycanın mənafeyini qorumağa, respublika daxili problemlərin yaranma səbəblərini açmağa və onların həllinin əsas yollarını sübut etməyə yönəlib.

Bu fikirlərin nəticəsi bir çox televiziya və radio çıxışlarımda öz əksini tapıb, uyğun məqalə və monoqrafiyalarda cilalanıb. Amma parlament davranışı, parlamentdə qanunvericiliklə məşğul olmaq şərəfli iş olsa da çox məsuliyyətlidir. Xalq bu qanunları bilməklə deputatlığa qiymət verə bilər və öz seçimini kommersiya mənfəətinə yox, xalqın və respublikanın mənafeyinə xidmət edən insanlara etməlidir.

Kitabın yığılmasında rəhbərlik etdiyim kafedranın işçilərinə minnətdarlığımı bildirirəm.